# AZƏRBAYCANIN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI İLƏ ƏMƏKDAŞLIĞININ STRATEJİ İSTİQAMƏTLƏRİ

**M.Ə.SULTANOV**
***Bakı Dövlət Universiteti***
***cas_az@mail.ru***

*Məqalədə AYİB-nın meydana gəlməsini şərtləndirən amillər, onun Azərbaycanda əməkdaşlığının strateji istiqamətləri, birgə həyata keçirilən əsas layihələrin qısa xarakteristikası və layihələrin müsbət və mənfi tərəfləri işıqlandırılmışdır.*

Dünya iqtisadiyyatı milli təsərrüfatların, onların iqtisadi və siyasi qarşılıqlı münasibətlərinin məcmusu olaraq XX yüzilliyin sonlarından etibarən intensiv inteqrasiya meylləri ilə xarakterizə olunur. Qloballaşma təsərrüfat həyatının beynəlmiləlləşdirilməsinin vacib forması və eyni zamanda yeni mərhələsi olur. Beynəlxalq arenada yeni oyunçuların – dövlət təşkilatları ilə bərabər daha böyük rol oynamağa başlayan Beynəlxalq Valyuta Fondu, Dünya bankı, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və başqaları kimi müxtəlif beynəlxalq tənzimləyici institutların meydana gəlməsi və rolunun güclənməsi bu təzahürün mühüm əlamətidir [3,87].

80-ci illərin sonu 90-cı illərin əvvəllərində baş verən iqtisadi və siyasi dəyişikliklər nəticəsində Mərkəzi və Şərqi Avropa (MŞA) ölkələrində yeni siyasi vəziyyət yarandı. "Soyuq müharibə"nin başa çatması müəyyən beynəlxalq sabitliyi təmin etdi, dünyada siyasi vəziyyəti və tarazlığı dəyişdi və MŞA ölkələrində demokratik proseslərin inkişafına səbəb oldu. Bununla yanaşı sosialist sisteminin iflasından sonra bu ölkələr istehsalın, əhalinin həyat səviyyəsinin kəskin aşağı düşməsi, işçi qüvvəsinin irimiqyaslı miqrasiyası və işsizlik, milli problemlərin kəskinləşməsi və onların hərbi münaqişələrə çevrilməsi, ətraf mühitin pisləşməsi ilə əlaqədar olan problemlərlə qarşılaşdılar. MŞA ölkələri üzrə maliyyə-kredit müəssisələrinə ümidsiz kreditlər, maliyyə ehtiyatlarının məhdudluğu, kapitallaşma prosesinin ətalətliliyi, maliyyə sektorunun hədsiz inhisarlaşdırılması kimi ciddi problemlər irsən keçmişdi. MŞA ölkələri qarşısında iqtisadiyyatın özəl sektorunun formalaşdırılması və sürətli inkişafı vəzifəsi dururdu [2, 136]. Digər tərəfdən "soyuq müharibə"nin sona çatması Avropada inteqrasiya proseslərinin gələcək inkişaf imkanını bildirir, bunun təzahürlərindən biri sosializmin iflasından sonra qüvvələr balansının ABŞ-ın xeyrinə yerini dəyişdiyi dünya miqyasında bu regionun rolunun güclənməsinə səbəb olan avropa beynəlxalq təşkilatının yaradılması oldu. Bu təşkilatın fəaliyyəti MŞA ölkələrinin onların ümumavropa siyasi və iqtisadi idarə üsuluna gələcək inteqrasiyası perspektivi ilə inkişafına kömək etmək məqsədini daşıyırdı. MŞA ölkələrində özəl sektorun və infrastrukturun inkişafına, bazar islahatlarının və struktur dəyişiklik-

lərinin aparılmasına kömək edən AYİB-in yaradılması bu sahədə ən əhəmiyyətli hadisələrdən biri oldu. Bununla əlaqədar olaraq postsovet məkanı ölkələrinin dünya iqtisadiyyatına inteqrasiyası ilə əlaqədar olaraq intensiv dəyişikliklər şəraitində regional iqtisadi münasibətlərin institusional strukturunda AYİB-in xarakterik xüsusiyyətləri və yerinin aşkara çıxarılması aktuallıq kəsb edir. MŞA ölkələrinin postsosialist dövründə qarşılaşdıqları problemlərin oxşarlığını nəzərə alaraq göstərilən ölkələrdə iqtisadiyyatın kreditləşdirilməsi, xüsusilə kiçik və orta biznesin kreditləşdirilməsi, maliyyə təşkilatlarının inkişafı üzrə proqramların həyata keçirilməsi sahəsində AYİB-in təcrübəsinin öyrənilməsi, təhlil və istifadə edilməsi Azərbaycan iqtisadiyyatının sürətli və davamlı inkişafı xeyrinə ondan istifadə edilməsi nöqteyi-nəzərindən böyük maraq kəsb edir.

AYİB mərkəzi Avropadan mərkəzi Asiyayadək 29 ölkədə layihələrə dəstək verən beynəlxalq maliyyə təşkilatıdır. Onun müştəriləri bazarın tələblərini tam ödəyə bilməyən ölkələrdir. AYİB üstün olaraq özəl sektora investisiya qoyan sahibkarlara önəm verir, açıq və demokratik bazar iqtisadiyyatı yönündə keçidə imkan yaradır [7, 23]. AYİB regionda ən böyük vahid investordur və ona daxil olan əməliyyat ölkələrinə əhəmiyyətli xarici birbaşa investisiya səfərbər edir. Bank adətən kommersiya partnyorları ilə birlikdə əsasən özəl müəssisələrə sərmayə qoyur. O maliyyə sektoru və real iqtisadiyyat, vençur müəssisələr və mövcud şirkətlərdə investisiyaları maliyyələşdirən layihələri təmin edir. AYİB həmçinin özəlləşdirməni dəstəkləmək, bələdiyyə xidmətlərini təkmilləşdirmək və dövlətə mənsub olan firmaları yenidən strukturlaşdırmaq üçün dövlət mülkiyyətli şirkətlərlə işləyir. 61 ölkəyə və iki hökumətlərarası təşkilata mənsub olan AYİB öz məqsədlərini irəli çəkmək üçün hökumətlər, hakimiyyət orqanları və vətəndaş cəmiyyətlərinin nümayəndələri ilə sıx siyasi dialoq aparır. Özünün bütün əməliyyatlarında AYİB korporativ idarəetmənin və davamlı inkişafın ən yüksək standartlarının ardınca gedir. İctimai təşkilat kimi AYİB-ə ciddi ictimai informasiya siyasəti həvalə edilir. AYİB ilə birgə həyata keçirilən layihələrin xarakterik əlamətləri aşağıdakılardır:

- AYİB-in layihənin ümumi dəyərinin 35%-i səviyyəsində iştirakı;
- maliyyələşdirmənin xeyli hissəsi digər iştirakçılar tərəfindən həm pul formasında, həm də natural ifadədə verilməsi [1, 279].

AYİB-in əməliyyatları digər beynəlxalq təşkilatların (Dünya Bankı, regional inkişaf bankları və ikitərəfli donorlar) fəaliyyətləri ilə koordinasiya olunur [6, 328].

Azərbaycan AYİB-ə 25 sentyabr 1992-ci ildə üzv olmuşdur. AYİB-in Bakıdakı rezident nümayəndəliyi 1995-ci ilin dekabrında yaradılmışdır. AYİB müəssisə, maliyyə və infrastruktur sahələrində öz investisiyaları vasitəsilə Azərbaycanın sürətli iqtisadi artımını davamlı etmək üçün struktur islahatlarına yardım göstərir.

Cədvəl

**AYİB-in Azərbaycanda həyata keçirdiyi layihələr**

| Layihə | Sektor | Portfel tipi | İmza ili, LXS-in (layihə xülasəsi) açıq-landığı tarix | Status | Layihənin ümumi dəyəri, mln. ABŞ dolları | Kredit, mln. ABŞ dolları | Kapi-tal, mln. ABŞ dolları | AYİB maliyyələş-dirməsi, mln. ABŞ dolları |
|---|---|---|---|---|---|---|---|---|
| Azmeko | Təbii sərvətlər | Özəl | 19.08.2009 | Struktur yoxlaması başa çatmışdır, yekun yoxlama gözlənilir | 300 | 90 | 30 | 120 |
| “Qaradağ Sement”in istehsal gücünün artırılması | Ümumi istehsal | Özəl | 06.03.2009 | Ümumi baxışdan keçib, yeni müzakirəsi gözlənilir | Təqribən 330 mln. avro | 170 mln. avro | | 170 mln. avro |
| AzDRES enerji qurğusunun bərpası | Güc və enerji | Dövlət | 16.08.2005 | Təsdiq edilmişdir | 232 | 115 | | 115 |
| Lukoil Dənizin o tayı: Şah dəniz qaz kondensatı yatağının inkişafı | Təbii ehtiyatlar | Özəl | 27.05.2005 | Təsdiq edilmişdir | 2.277 | 110 | | 110 |
| Bakı Samur | Nəqliyyat | Dövlət | 10.03.2005 | Təsdiq edilmişdir | 110 | 100 | | 100 |
| Şah Dəniz qaz yatağının işlənilməsi | Təbii ehtiyatlar | Dövlət | 10.12.2003 | Yekunlaşıb | 2.263,8 | 110 | | 110 |
| Çıraq ilkin neft | Təbii ehtiyatlar | Özəl | 15.06.1998 | Yekunlaşıb | 1.856 | 200 mln. ABŞ dolları (180,0 mln. avro) | | 200 mln. ABŞ dolları(180,0 mln. avro) |
| Azərbaycanın çoxbanklı strukturunun maliyyələşdirilməsi imkanı (AFSF) | Banklara kreditin verilməsi | Özəl | 31.10.1997 | Yekunlaşıb | 100 | 100 | | 100 |

AYİB-in hazırkı vaxta qədər Azərbaycanda həyata keçirdiyi bütün layihələrin ümumi dəyəri 1300 mln. ABŞ dollarına yaxındır. Həyata keçirilən və təsdiq olunan layihələrin dəyəri təxminən 800 mln. ABŞ dolları, yekunlaşan layihələrin dəyəri isə 500 mln. ABŞ dollarına bərabərdir[5,47].

AYİB-in Azərbaycanda həyata keçirdiyi layihələrin bir neçəsinin qısa xarakteristikasını verək:

**1. "Millətlər Azərbaycanı" (keçmiş "Moncrief Azərbaycan Neft Şirkəti")** adı altında AYİB kapital investisiyasını həyata keçirmişdir. Bu layihə mülkiyyətlə əlaqədar olan hasilatın pay bölgüsü (HPB) sazişi altında Azərbaycanda quruda olan neft yataqlarının yenidən qurulması və inkişafını dəstəkləmək üçün orta müddətli dövri kredit mexanizmini uzatmağa yönəldilmişdir. AYİB layihəsinin məqsədi Azərbaycanda Kür Vadisində yerləşən quruda olan Mişovdağ və Kələməddin neft yataqları bloklarının HPB şərtlərinə əsaslanan bərpası, inkişafı və istehsalı fəaliyyətlərini maliyyələşdirmək olmuşdur. Layihə Azərbaycanda neft istehsalı həcmlərində artıma öz töhfəsini verməyi nəzərdə tutmuşdur. Layihənin AYİB maliyyələşməsi dövri kreditə əsaslanan təsdiq edilmiş ehtiyat ilə 40 mln. ABŞ dolları, kapial qoyuluşu 5 mln. ABŞ dolları olmuşdur.

**2. "Mingəçevir Enerji Layihəsi"-nə** aşağıdakılar daxildir: 1) Mingəçevir Hidroenerji Zavodunda mövcud dörd generator vahidinin əvəz edilməsi; 2) ehtiyat 120 km hündürlüyündə yüksək gərginlikli (330kV) enerjinin verilməsi xəttinin yenidən qurulması; 3) Bərdə rayonunda əlaqə xəttinə birləşdirilməklə Agcabədidə yarımstansiyanın (110 kv) qurulması. Layihənin məqsədlərinə daxildir: 1) enerji sektorunun tam kommersiyalaşdırılması; 2) yaxşı satılan neft və idxal edilən qaz üçün hidroenerjini əvəz etməklə üzvi yanacağın istehlakının və atmosferin çirklənməsinin azaldılması; 3) enerjinin verilməsi itkilərini azaltmaq yolu ilə enerji effektivliyinin yaxşılaşdırılması. İkinci kreditin hökumətə Azərenerjinin kommersiyalaşdırılmasını tamamlamağı, sektorda sonrakı tarif və maliyyə intizamının artırılmasına, şəffaf hüquqi və tənzimləyici sistemi qurmağa imkan verəcəyi gözlənilirdi. Təklif edilən layihənin seçilmiş elektrik stansiyalarının özəlləşdirilməsi prosesini həvəsləndirəcəyi gözlənilir. Krediti elektrik enerjisinin istehsalı, ötürülməsi və paylaşdırılması üçün, həmçinin ölkənin istilik sistemlərinin işinə məsuliyyət daşıyan dövlətə mənsub səhmdar energetika kampaniyası Azərenerji almışdır. AYİB-in krediti 21,65 mln. ABŞ dollarıdır (19,86 mln. EKYÜ). Azərenerji bu layihəni İslam İnkişaf Bankı və AŞ-nin Tasis təşkilatı ilə birgə maliyyələşdirmişdir. Layihənin ümumi dəyəri 44,62 mln. ABŞ dolları (40,94 mln. EKYÜ) olmuşdur. Layihə ekoloji ekspertiza və ekoloji təftişi qismən lazım bilən B/1 kateqoriyası kimi növə ayrılmışdır.

**3. "Azərbaycan: İpək Yolu" layihəsi** Qazı Məmmədən Kürdəmirə qədər yolun 85 km bölməsinin yenidən qurulması, eyni zamanda yolun bu hissəsinin restrukturlaşdırılmasına kömək edilməsi məqsədi ilə həyata keçirilmişdir. Layihə Yol Nəqliyyatı Xidməti Departamentinin restrukturlaşdırmasına kömək etməklə yanaşı yol bölməsinin maliyyələşdirilməsi üzrə tövsiyələri təmin etməyi nəzərdə tutmuşdur. AYİB-in maliyyələşdirilməsi 41 mln. ABŞ dolları, layihənin ümumi dəyəri isə 46,6 mln. ABŞ dolları olmuşdur. Layihə Ekoloji Təhlilin lazım bildiyi B/1 kateqoriyası növünə aid edilmişdir.

**4. "Access Bank –A/B krediti" layihəsi** Mikro və Kiçik Müəssisələrə (MKM) borc verən Azərbaycanın Mikromaliyyələşdirmə Bankı üçün təxminən 40 mln. ABŞ dolları miqdarında sindikatlaşdırılmış krediti təmin etmişdir. Kredit mexanizmi

beynəlxalq kapital bazarlarına giriş əldə etməkdə AMMB-ya kömək edəcək və xüsusilə kapital xaricində AMMB-nın artan KOM kredit əməliyyatını dəstəkləmək üçün uzunmüddətli maliyyələşdirməni təmin etməklə Azərbaycanın maliyyə sisteminin dərinləşməsinə kömək edəcək. Eyni zamanda, AMMB MKM-ə fasiləsiz dəstəyi təmin etdiyi üçün Azərbaycanda MKM sektorunun inkişafına keçidi birləşdirməyə kömək edəcək. Tam layihə dəyəri 40 mln. ABŞ dolları olmuşdur.

**5. "Qaradağ Sement"in istehsal gücünün artırılması layihəsi"** AYİB Qaradağ Sement Açıq Səhmdar Cəmiyyətinin modernləşdirilməsi və istehsal gücünün artırılmasının maliyyələşdirilməsinin həyata keçirilməsini nəzərdə tutmuşdur. Şirkət gündəlik klinker istehsalını 2,616 tondan 4,000 tonadək, illik sement istehsalı gücünü isə klinker idxal etmədən 1,1 metrik tondan 1,7 metrik tonadək artırmağı planlaşdırmışdır. İnşaat müddətinin 2009-cu ilin ortasından yeni sobanın dövlət komissiyası tərəfindən 2011-ci ilin birinci yarısında qəbul edilənədək çəkəcəyi gözlənilir. Layihə quru texnologiyanın tətbiqi sayəsində eneryi məsrəflərinin əhəmiyyətli şəkildə azaldılmasına imkan verəcəkdir (istehsal olunan hər klinker vahidi üçün enerji istifadəsi 50%-dən çox azalacaq). Layihə üzrə ən qabaqcıl texnologiyaların tətbiqi əldə edilən biliyin digər sahələrdə istifadəsinə və müvafiq ustalığın daha yüksək pilləyə çıxmasına gətirib çıxaracaq. Holcim şirkətinə 170 mln. avro həcmində strukturlaşmış korporativ kredit veriləcək. Bunun 150 mln. avroluq həcmini A/B tipli ilk növbədə geri ödənilmə ixtiyarı olan kredit təşkil edir. Bu məbləğin təxminən 50%-ni kommersiya bankları (B borcverənləri) təklif edəcək. Kreditin qalan 20 mln. avroluq ikinci növbədə geri ödənilmə ixtiyari olan C tipli həcminin AYİB-in hesablarından ödəniləcəyi nəzərdə tutulmuşdur. Layihənin ümumi dəyərinin təqribən 330 mln. avro olması gözlənilir. Layihəyə A/1 təsnifi verilmişdir.

**6. "Şahdəniz qaz kondensatı yatağının inkişafı" layihəsi** altında Xəzər qaz yatağı, boru kəməri layihələri üçün 170 mln. ABŞ dollarında vəsait ayrılmışdır. Bu kredit Azərbaycan, Gürcüstan və Türkiyənin enerji təchizatını genişləndirmək üçün nəzərdə tutulmuşdu. BYİB-in Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı Azərbaycan Dövlət Neft Şirkətinə (ARDNŞ) iki Xəzər qaz layihəsi üçün verdiyi bu kreditin region üçün əhəmiyətli gəlirləri və Azərbaycan və Gürcüstan vətəndaşlarının daha təhlükəsiz enerji təchizatını formalaşdıracağını nəzərdə tuturdu. BYİB ümumi dəyəri 4,3 mlrd. ABŞ dolları qiymətləndirilən Şahdəniz qaz yatağının inkişafı üçün 110 mln. ABŞ dolları borc vermişdir, 1 mlrd. ABŞ dollarından əlavə olaraq 60 mln. ABŞ dolları Cənubi Qafqaz qaz kəməri üçün tələb olunmuşdur. Kreditlər bu vacib layihələrdə ARDNŞ-ə kommersiya oyunçusu qismində iştirak etməkdə kömək etmişdir. Azərbaycan və Gürcüstanda 690 km uzunluğunda qazötürücü Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutu boyu tikilmiş və onun Azərbaycan və Gürcüstan bölmələri qismən AYİB tərəfindən maliyyələşdirilmişdir.

**7. "AYİB/BMK Xəzər dənizində neftin inkişafına sərmayə qoyuluşu" layihəsi** altında Xəzər dənizində ofşor Çıraq Yatağını inkişaf etdirmək üçün Erkən Neft Layihəsinə 200 mln. ABŞ dolları (180 mln. avro) qədər sərmayə qoyulmuşdur. 11 beynəlxalq neft şirkətinin və ARDNŞ tərəfindən cəhd edilən Erkən Neft Layihəsi mövcud ofşor platformanın bərpasını, su quyularının qazılması və dənizaltı boru kəmərlərinin yaradılmasını, eləcə də Azərbaycanda və Gürcüstanda terminalların quraşdırılmasını, Azərbaycandan Rusiya sərhədinə və Gürcüstana, Supsaya qədər neft kəmərinin bərpa edilərək tamamlanmasını özündə birləşdirmişdir. İstehsal 1997-ci ilin noyabrında başlanmış və hal-hazırda gün ərzində 80000 barel neftə bərabərdir. Bu

layihə Çıraq, Azəri və Dərinsulu Günəşli yatağı komplekslərinin inkişafının birinci mərhələsi olmuş, layihə həcmi 10-12 mlrd. ABŞ dollara (9-11 mlrd. avro) başa gəlmiş və nəticədə 4 mlrd. bareldən çox xam neftin əvəzinin ödənilməsi gözlənir. Gələn 10 ildə istehsalın gün ərzində azı 800000 barelə nail olunması proqnozlaşdırılır. AYİB və BMK-nın hər biri 200 mln. ABŞ dollarına (180 mln. avro) qədər maliyyələşdirməni təmin etmişlər, onların 100 mln. ABŞ dollara qədəri (90 mln. avro) isə sindikatlaşdırılmış olmuşdur.

**8. "Azərbaycanda enerji sektoru islahatına kömək etmək üçün AYİB krediti" layihəsi** altında Azərbaycanda İstilik Elektrik Stansiyasının bərpası üçün 115 mln. ABŞ dolları ayrılmışdır. Azərbaycan İstilik Elektrik Stansiyasının (AİES) bərpası üçün AYİB tərəfindən Azərenerji QSC-nə verilən 115 mln. ABŞ dolları kredit Azərbaycanda enerji sektorunun islahatına dəstək vermək üçündür. Kredit zavodun etibarlılığını, onun effektivliyini, sağlamlıq və sahədə təhlükəsizlik vəziyyətini yaxşılaşdırmış və karbon qazı buraxılışını azaltmaq üçün investisiyaları maliyyələşdirmişdir. 2400 MW gücə malik İES Azərbaycanda ölkənin ən böyük elektrik stansiyasıdır. Ehtimal olunur ki, karbon qazı buraxılışı 2006 və 2012-ci il aralığında 8,2 mln. ton azaldıla bilər, bu isə şirkətə əlavə gəlir mənbəyini təmin edən karbohidrat kreditləri inamını qazanmaq imkanını verir.

**9. "Azmeko" layihəsi** adı altında AYİB Azmeko şirkətinə illik potensialı təxminən 561000 ton olan metanol zavodunun və CO2 sorucu qurğusunun alınması, tikintisi və istismarını təmin etmək üçün 120000 mln. ABŞ dollarına qədər həcmdə maliyyə vəsaitini ayırmağı planlaşdırmışdır. Azmeko gələcək istehsal mərhələlərinə karbamid və ammonyak istehsalını daxil etmək niyyətində olmuşdur. Layihənin ümumi dəyəri 300 mln. ABŞ dollarından artıqdır. AYİB tərəfindən təmin olunan maliyyələşdirmə 2 tranşdan ibarət 120 mln. ABŞ dollarına qədər vəsaitdir: 9 illik müddətdə 90 mln. ABŞ dolları həcmində əsas kredit; əsas fəaliyyət üçün təmin olunan 10 il ərzində tam ödəniləcək 30 mln. ABŞ dolları həcmində maliyyə vəsaiti. Layihə AYİB-in ətraf mühitə dair siyasətinə əsasən B/1 kateqoriyasına aid edilmişdir.

**10. "Bakı Samur" layihəsi** altında AYİB Azərbaycan yolları üçün 100 mln. ABŞ dolları ayırmışdır. "Bakı Samur" layihəsi regional tranzit dəhlizi kimi Azərbaycanın rolunu artırmağı nəzərdə tutmuşdur. AYİB Rusiya və İranı Bakı şəhəri ilə əlaqələndirən əsas şimal-cənub yolunun bir hissəsinin təmiri və təkmilləşdirilməsi üçün Azərbaycana 100 mln. ABŞ dolları suveren kredit vermişdir. AYİB maliyyələşdirilməsinin Bakıdan şimalda Sumqayıt ayrıcındakı 28 km şimal-cənub yolunun və Bakıdan şimala 89 km məsafədə Zarat yolunun yaxşılaşdırılması üçün istifadə edilməsi nəzərdə tutulmuşdur. Yolun birinci 28 km yolu büdcə fondlarından istifadə etməklə təmir edildiyi halda Zaratla Samur arasındakı son bölmənin Çex ixrac bankı tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr" təşəbbüsü proqramına daxildir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətindəki beynəlxalq cəhdlər əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliyyələşdirilməsi və s. üzrə cəmləşdirmişdir.

AYİB bir sıra bankların institusional inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə onlara maliyyə və texniki yardımlar göstərir. Bank daha böyük,

daha diversifikasiya edilmiş və daha davamlı bankların inkişaf etdirilməsi məqsədilə mövcud və yeni partnyor banklara kredit xətləri, sindikatlaşdırılmış və subordinasiyalı kreditlər təmin edir. Bununla yanaşı, AYİB qeyri-bank mikro-maliyyə qurumlarını, habelə lizinq və sığorta şirkətlərini də dəstəkləməkdədir [4, 165].

AYİB-in Azərbaycan üzrə Ölkə Strategiyası (2007-2009-cu illər) Azərbaycanın üzləşdiyi təhlükələri nəzərə alaraq, iqtisadi diversifikasiya vasitəsilə bazar iqtisadiyyatının dəstəklənməsinə və uzunmüddətli davamlı inkişaf üçün mühitin yaradılmasına yönəldilmişdir. 18 sentyabr 2007-ci il tarixində təsdiqlənən Ölkə Strategiyası müddəti ərzində AYİB-in operativ məqsədləri aşağıdakı sahələrin dəstəklənməsindən ibarət olmuşdur: sahibkarlıq sektoru; maliyyə sektoru; infrastruktur və enerji.

Həmin strategiyanın əsas prioritet istiqamətlərini geniş formada aşağıdakı kimi verə bilərik:

- özəl və dövlət sektorlarında ediləcək sektor islahatlarında iştirak etmək, hakimiyyət nümayəndələri ilə investisiya mühitinin yaxşılaşdırılması yolunda danışıqları davam etdirmək;
- korporativ sektorun dəstəklənməsi, yerli sahibkarlar və xarici investorlarla qeyri-neft və qaz sektorunun inkişaf etdirilməsi uğrunda əməkdaşlıq;
- bank sektorunun inkişafında öz aparıcı rolunu davam etdirmək, rəqabəti genişləndirmək və qeyri-bank xidmətlərini inkişaf etdirmək;
- potensialın gücləndirilməsini dəstəkləmək və sektor restrukturlaşdırılması vasitəsilə özəl sektorun burada iştirakını təşviq etmək yolu ilə ətraf mühiti təmizləmək, nəqliyyat, və energetika sahələrində olan layihələrin maliyyələşdirilməsində rolunu davam etdirmək;
- dövlət-şəxsi tərəfdaşlıq (Public-Private Partnerships) təcrübəsinin Azərbaycanda tətbiq edilməsi üçün öz mövcud imkanlarını nəzərdən keçirmək.

AYİB ilə əməkdaşlığın artırılması baxımından prioritet hesab olunan istiqamətlərə isə bunlar daxildir:

- özəl sektorun inkişaf etdirilməsində Bankın əhatə dairəsinin genişləndirilməsi;
- kənd təsərrüfatının inkişaf etdirilməsində Bankın təcrübəsinin öyrənilməsi;
- maliyyə sektorunun inkişafı (o cümlədən sıgorta, lizing və bank sektoru);
- regional yönümlü layihələrin həyata keçirilməsində Bankın iştirakı;
- bankın fəaliyyətinin Azərbaycanın regionlarının inkişaf etdirilməsinə yönəldilməsi.

AYİB Azərbaycan İnvestisiya Şirkəti tərəfindən keçirilən layihələrin dəstəklənməsində öz marağını bildirmişdir. Bununla yanaşı AYİB "Azərbaycan Respublikasında liman qurğularının və terminallarının genişləndirilməsi və modernləşdirilməsi" layihəsinin həyata keçirilməsində maraqlıdır.

Azərbaycan sahibkar-borcalanları ilə bağlanmış investisiya müqavilələri üzrə beynəlxalq maliyyə-kredit təşkilatlarının vəsaitlərinin verilməsi yalnız onların cari maliyyə vəziyyəti və maliyyə fəaliyyətinin əlavə təhlili əsasında həyata keçirilir. Nəzərə almaq lazımdır ki, AYİB digər beynəlxalq maliyyə-kredit təşkilatları kimi Azərbaycanda öz layihələrini həyata keçirərkən tenderlər üzrə qərarların qəbul edilməsi zamanı özünün ən böyük donorlarının maraqlarını fəal şəkildə lobbiləşdirir. Ancaq qərb şirkətlərinin maraqlarını lobbiləşdirməklə yanaşı AYİB Azərbaycan istehsalçılarına yeni satış bazarlarının axtarışında kömək edir, bu isə Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasına şərait yaradır. Mənfi amil ondan ibarətdir ki, AYİB çoxtərəfli əsasda layihələrin maliyyələşdirilməsində iştirak edir, bu isə

Azərbaycanın problemlərinin həllinə kompleks yanaşmanı sübut edir.

Azərbaycanın AYİB və digər regional MKT ilə əməkdaşlığının genişlənməsi, fikrimizcə, aşağıdakı müsbət təsirlərin əldə edilməsinə səbəb olacaqdır:

- sosial-iqtisadi xarakterli layihələrin həyata keçirilməsində, regional əhəmiyyətli irimiqyaslı layihələrdə, orta və uzunmüddətli perspektivli xarici investisiyaların cəlb edilməsində regional MKT-nin kreditlərinin artırılması;

- Avropa bankları tərəfindən kreditləşdirilən layihələr üzrə Avropa və Azərbaycan müəssisələrinin əməkdaşlığının fəallaşdırılması;

- orta və uzunmüddətli perspektivdə Azərbaycanın müxtəlif bölgələrində irimiqyaslı layihələrə xarici investisiyaların cəlb edilməsi;

- Azərbaycan və Avropa əməkdaş-müəssisələrinin uzunmüddətli işgüzar maraqlarının birləşdirilməsi hesabına Aİ ilə ticarət-iqtisadi münasibətlər bazasının möhkəmləndirilməsi;

- yerli müəssisələrin əlavə yüklənməsi, əlavə iş yerlərinin yaradılması və nəticə etibarilə ölkədəki sosial vəziyyətin daha da yaxşılaşdırılması;

- Azərbaycanla Avropa İttifaqı arasında maliyyə münasibətlərinin inkişaf etdirilməsində AYİB-in iştirakının genişləndirilməsi;

- müasir maliyyə menecmenti və korporativ idarəetmə metodlarının tətbiqi ilə irimiqyaslı investisiya layihələrinin işlənib hazırlanması və həyata keçirilməsi üzrə beynəlxalq maliyyə kredit təşkilatlarının məlumatları təcrübəsindən istifadə edilməsi;

- Azərbaycan iqtisadiyyatının prioritet sahələrinə xarici investisiyaların cəlb edilməsində AYİB-in iştirakı;

Bundan başqa AYİB ilə əməkdaşlığın zəruri, xüsusilə vacib tərəfini – birgə layihələrin aşkar ekoloji istiqamətliliyini qeyd etməyi lazım bilirik. İxracın diversifikasiyasının dövlət siyasətinin strateji məsələlərindən biri Azərbaycan məhsul və xidmətlərinin xarici bazarlara çıxmasına kömək etməkdir, bu isə ölkəmizin xarici bazarlara irəliləyişinə kömək etməyi mümkün edən digər beynəlxalq maliyyə kredit təşkilatları ilə qarşılıqlı münasibətlərin yollarını axtarmaq ehtiyacını formalaşdırır.

**ƏDƏBİYYAT**


1. Vəliyev D., Rəhimov M. Beynəlxalq maliyyə. Bakı: Azərbaycan Universiteti, 2000, 330 s.
2. Kərimov C., Orucov A. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı: Nurlan, 2008, 212 s.
3. Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları: Dərslik / Bakı: Azərbaycan, 2003, 256 s.
4. Məmmədov Z.F. http://www.elibrary.az/cgi/enirbis64r/cgiirbis_64.exe?Z21ID =&I21DBN =IBIS&P21DBN=IBIS&S21STN=1&S21REF=10&S21FMT=fullw&C21COM=S&S21CNR=20&S21P01=0&S21P02=0&S21P03=M=&S21COLORTERMS=0&S21STR=Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi: Dərslik. Bakı: Azərnəşr, 2008, 296 s.
5. Elçin Süleymanov. Müstəqillikdən sonra Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya – iqtisadi və beynəlxalq münasibətlər / II beynəlxalq konqresin materialları. Bakı, 02-05 may, 2007. Qafqaz Universiteti, s. 53-60.
6. Красавина Л.Н. Международные валютно-кредитные и финансовые отношения: Учебник. М.: Финансы и статистика, 2008, 576 с.
7. Мигун И.В. О кредитовании ЕБРР малого и среднего бизнеса в странах Центральной и Восточной Европы //Деньги и кредит, М.: 2004, №7, с. 19-26.
8. www.ebrd.com/

## СТРАТЕГИЧЕСКИЕ НАПРАВЛЕНИИ СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА С ЕВРОПЕЙСКИМ БАНКОМ РЕКОНСТРУКЦИИ И РАЗВИТИЯ

**М.А.СУЛТАНОВ**

**РЕЗЮМЕ**

В статье рассматриваются различные аспекты и последствия результатов сотрудничества Азербайджана с Европейским Банком Реконструкции и Развития. В этой связи анализируются предпосылки стратегического сотрудничества в области реализации совместных проектов и их прогностические оценки.

## STRATEGICAL DIRECTIONS OF AZERBAİJAN'S COOPERATION WITH EUROPEAN RECONSTRUCTION AND DEVELOPMENT BANK

**M.A.SULTANOV**

**SUMMARY**

The article studies several aspects and results of Azerbaijan's cooperation with European Reconstruction and Development Bank. The author analyzes the advantageous influence of this strategical cooperation in the sphere of realization of mutual projects and their assessment.